# Azad rayonlarda enerji istehsalı iqtisadiyyatın mühüm sahəsinə çevrilir...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

**Azərbaycanın sosial iqtisadi inkişafında enerji resurslarının, enerji istehsalının payı ayrıca qeyd olunmalıdır. Bu gün ölkəmizdə neft-qaz kimi ənənəvi enerji resursları ilə yanaşı "yaşıl enerji", bərpa olunan, alternativ enerji növləri də olduqca populyardır, eyni zamanda ölkənin iqtisadiyyatı üçün gəlirli sahədir.**



Beş il bundan əvvəl torpaqlarımız işğaldan azad olunandan sonra gündəmə gələn məsələlərdən biri azad rayonların enerji potensialının yüksək olması oldu. Sonrakı mərhələlərdə tam təsdiqləndi ki, Qarabağın və Şərqi Zəngəzurun çox geniş "yaşıl enerji" potensialı mövcuddur.

Rəsmi məlumatlarda deyilir ki, Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi əsas istiqamətlərdən biri hesab olunur. 44 günlük Vətən müharibəsindən sonra 2020-ci ilin iqtisadi yekunlarına dair 6 yanvar 2021-ci il tarixli müşavirədə Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən işğaldan azad edilmiş ərazilərdə Yaşıl Enerji Zonasının yaradılmasına dair strateji baxış irəli sürülüb və bunun üçün həmin ərazilərdə kifayət qədər bərpa olunan enerji potensialının olması bildirilib.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 may 2021-ci il tarixli 2620 nömrəli Sərəncamı ilə beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi nəzərdə tutulmuşdur. Sərəncamın icrası istiqamətində Yaponiyanın TEPSCO şirkəti ilə əməkdaşlığa başlanılmış və müvafiq Konsepsiya sənədi hazırlanıb.

Konsepsiyanın məqsədi işğaldan azad edilmiş ərazilərdə mövcud olan yüksək bərpa olunan enerji potensialından istifadə etməklə ərazini ekoloji cəhətdən təmiz yaşıl enerji ilə təmin etmək və ekoloji cəhətdən təmiz və enerji səmərəliliyinə malik yaşıl texnologiyaların tətbiqi perspektivlərini araşdıraraq təkliflər formalaşdırmaqdır. Bunun üçün müxtəlif ssenarilər tətbiq edilməklə ərazilərin enerji tələbatı modelləri hazırlanıb.

Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də respublikamızda "yaşıl enerji" istehsalının genişləndirilməsi mühüm yer tutur. Ölkəmizin ümumi enerji istehsalında hədəfi bərpa olunan enerji payını 2025-ci ildə 24 faizə, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır.

Statistik göstəricilərə görə, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, Xəzər dənizinin Azərbaycana aid olan hissəsində isə 157 qiqavatdır. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən, külək enerjisi üzrə 3 min MVt, günəş enerjisi üzrə 23 min MVt, bioenerji potensialı 380 MVt-dır . Dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

Azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də, Naxçıvan bölgəsi Azərbaycanda "yaşıl enerji" zonaları elan edilib. İşğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji"yə keçid Azərbaycan üçün mühüm strateji məqsədlərdəndir. İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı qarşıya qoyulan vəzifələrin icrası məqsədilə Yaponiyanın TEPSCO şirkəti ilə müqavilə imzalanıb. Regionun enerji təminatını həyata keçirmək məqsədilə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyası və Baş Plan mövcuddur.

İqtisadi və Sosial Araşdırmalara Yardım İB sədri Əyyub Kərimli "Bakı-Xəbər"ə bildirdi ki, azad edilmiş ərazilərdə enerji istehsalı bu gün iqtisadiyyatın mühüm sahəsinə çevrilib. "Bu həm Azərbaycanın enerji təhlükəsizliyi, həm də regional iqtisadi inkişaf baxımından strateji əhəmiyyət daşıyır. Sözsüz ki, işğaldan azad edilmiş bölgələrimizin enerji istehsalının əsas hərəkətverici amilləri var. Bu amillərdən təbii resursları vurğulamaq istərdim. Qarabağ iqtisadi rayonunda və Şərqi Zəngəzur zonasında günəş, külək, su ehtiyatları kifayət qədər yüksəkdir. Bu resursların mövcudluğu alternativ və bərpa olunan "yaşıl enerji" istehsalı üçün əlverişlidir. Həmçinin həmin bölgələrimizdə infrastruktur yenidən qurulur, "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyası həyata keçirilir. Bu baxımdan da hazırda müasir texnologiyaların tətbiqi, innovativ həllər "yaşıl enerji"yə keçid imkanlarını daha da asanlaşdırır. Burda dövlətin siyasi-iqtisadi, həm investisiya dəstəyi, həm strateguyası var. Bilirsiz ki, Azərbaycan hökuməti həmin əraziləri "Yaşıl Enerji Zonası" elan edib. Bu həm də bura xeyli xarici və yerli investisiyanın cəlb edilməsini təşviq və təmin edir. Yeni texnologiya kapital axınını təmin edir ki, bu da öz növbəsində bölgələrdə "yaşıl enerji" istehsalı imkanlarını daha da genişləndirir, sürətləndirir, həmçinin də burda istehsal olunan enerjinin həm daxili bazara, həm də xarici bazara geniş ixrac etmək imkanı var. Naxçıvana, Türkiyəyə, Gürcüstana, Avropa bazarlarına çıxış əldə etmək imkanı var. Gələcəkdə qonşu ölkələrə də bu enerjinin ixracı imkanları genişdir, buna şərait var. Bəlkə gələcəkdə İrana, Ermənistana da ordan enerji ixrac edə bilərik ki, sözsüz, bu da bizim strateji tərəfdən üstünlüyümüzü təmin edə bilər. Həmçinin Qarabağın təmiz ekologi mühiti "yaşıl enerji" istehsalı və tətbiqi üçü daha uyğundur. Bu Azərbaycanın beynəlxalq "yaşıl gündəm", "yaşıl iqtisadiyyat"a keçid öhtəliklərinə də cavab verir.

Hesab edirəm ki, ümumiyyətlə işğaldan azad edilmiş rayonlarda tək elektrik enerji istehsal məhdudlaşılmayacaq, burda qoyulan investisiyalar, aparılan iqtisadi siyasət iqtisadiyyatın şaxələndirilməsinə, investisiyanın cəlb olunmasına, həmçinin yeni iş yerlərinin açılmasına və regionun sosial iqtisadi canlanmasına təsir edəcək, bunları təmin edəcək, fayda verəcək. Həmçinin enerji infrastrukturu bərpa olduqca digər sahələrin də təşəkkül tapmasına, əsasən sənaye parklarının, kənd təsərrüfatı müəssisələrinin və xidmət sahələrinin inkişafına əhəmiyyətli töhfələr evrəcək"-deyə Ə.Kərimli qeyd etdi.

***İradə SARIYEVA***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur***